## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi (bundan sonra – mərkəz) stasionar və ambulator müalicə üçün beynəlxalq standartlara cavab verən müasir diaqnostik və cərrahiyyə avadanlıqları ilə təchiz olunmuş maddi-texniki bazaya malikdir. Mərkəzdə oftalmologiyanın bütün sahələrini əhatə edən şöbələr və yüksək ixtisaslı mütəxəssislər fəaliyyət göstərirlər.

Mərkəzdə “Konsultativ poliklinika”, “Qlaukoma”, “Katarakta cərrahiyyəsi”, “Buynuz qişanın cərrahiyyəsi və transplantasiyası”, “Eksimer-lazer”, “Gözün yoluxucu xəstəlikləri”, “Uşaqlarda gözün patologiyası”, “Tor qişanın və görmə sinirinin patologiyası”, “Şəkərli diabetin göz fəsadları”, “Gözün vitreoretinal cərrahiyyəsi”, “Lazer cərrahiyyəsi”, “Gözün zədəsi”, “Okuloplastik və rekonstruktiv cərrahiyyə”, “Onko-oftalmoloji”, “Cərrahiyyə-əməliyyat bloku”, “Şüa diaqnostikası”, “Gözün tibbi ekspertizası” şöbələri fəaliyyət göstərir. Mərkəzdə stasionar və ambulator müalicə üçün nəzərdə tutulmuş oftalmoloji cihazlarla təmin olunmuş maddi-texniki baza mövcuddur.

Mərkəz 195 nəfərlik çarpayı sayına malikdir. Mərkəzin nəzdində 3 filial (Masallı, Gəncə və Şəki şəhərlərində) və 2 səyyar klinika (avtomobil və dəmir yolu) mövcuddur.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində 78 elmi işçi (onlardan 52 nəfəri elmi dərəcəsi və elmi adı olan mütəxəssis olmaqla) çalışır. Mərkəzin rezidentlər üçün yaradılmış xüsusi təhsil otaqları, təhsil dövründə istifadə edə biləcəkləri “Bioloji obyektlərdə və mulyajlarda praktiki bacarıqların öyrədilməsi laboratoriyası (WETLAB)” bölməsi mövcuddur, həmçinin rezidentlərin tədris planlarına uyğun növbə qrafikləri, onlara təyin edilmiş kuratorlarla birgə 3 illik oftalmoloji fəaliyyət təşkil edilmişdir.

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı (bundan sonra – hospital) 25 dekabr 2008-ci il tarixində fəaliyyətə başlamışdır.

Hospitalda 74 stasionar çarpayı sayı ilə xəstələrə tibbi xidmət göstərilir, mürəkkəb əməliyyatlar (uroloji rekonstruktiv, canlı donordan və meyit donordan xəstəyə qaraciyər və böyrək transplantasiyası, travmatoloji əməliyyatlar, ağır xəstələrdə ürəkdə aorto-koronar şuntlama və digər açıq ürək əməliyyatları, TAVİ, EVAR kimi invaziv müdaxilələr və digər əməliyyatlar) icra olunur.

Hospitalın Ümumi Cərrahiyyə, Orqan Transplantasiyası, Anesteziologiya, Əməliyyatxana və Reanimasiya, Urologiya, Uşaq Cərrahiyyəsi, Travmatologiya və

Ortopediya, Ürək-damar Cərrahiyyəsi, Kardiologiya, Efferent Terapiya, Mama-ginekologiya, Radiologiya, Fizioterapiya, Neonatologiya və Pediatriya, Təcili Tibbi Yardım, Poliklinika və digər şöbələrində yüksəkixtisaslı tibb heyəti xidmət göstərir.

Hospitalın yeni korpusu 2025-ci ilin sonuna qədər istifadəyə verilərək "Ana və Uşaq Sağlamlıq Mərkəzi" kimi (çarpayı sayı 100-dən çox) fəaliyyət göstərəcək. Bu isə mamalıq-ginekologiya, uşaq cərrahiyyəsi, uşaq reanimasiyası, uşaq nevrologiyası, neonatologiya və pediatriya üzrə təhsil alan rezidentlərə geniş təcrübə qazanmaq, müasir tibb texnologiyaları ilə işləmək və yüksək səviyyədə peşəkar bacarıqlarını inkişaf etdirmək üçün imkan yaradacaqdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Türkiyənin Florence Nightingale Hastaneler Qrupu və Türkiyə Cümhuriyyəti Demiroğlu Bilim Universiteti, Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Naxçıvan Dövlət Universiteti, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və digər qurumlarla imzalanmış əməkdaşlıq memorandumları çərçivəsində beynəlxalq konfranslar, konqreslər, təkmilləşdirmə kursları, müştərək elmi-tədqiqat və davamlı tibbi təhsil tədbirləri, təcrübə proqramları, ustad dərsləri və digər qarşılıqlı tədbirlər keçirilir.

Həmçinin Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Böyük Britaniyanın Birmingem Qadın və Uşaq Hospitalı ilə sıx əməkdaşlıq əlaqələri rezidentlərə Böyük Britaniyada mamalıq-ginekologiya və pediatriya üzrə təcrübə keçmək imkanı yaradır.

Hospital ümumilikdə 300 nəfərlik peşəkar kadr heyəti və 4 mindən artıq tibbi xidmət növü ilə gömrük əməkdaşlarının və əhalinin sağlamlığının keşiyindədir. Hazırda hospitalda 1 akademik, 2 əməkdar həkim, 1 səhiyyə əlaçısı, 3 tibb üzrə elmlər doktoru, 19 tibb üzrə fəlsəfə doktoru, 1 dosent, 3 doktorant və Türkiyədə uzmanlıq təhsili almış 19 həkim fəaliyyət göstərir.

Hospitalın Poliklinika şöbəsində yüksəkixtisaslı mütəxəssislər tərəfindən damar cərrahiyyəsi, üz-çənə cərrahiyyəsi, neyrocərrahiyyə, uroloji, nefroloji, travmatoloji və digər ambulator cərrahiyyə, stomatoloji, dermatoveneroloji, toksikoloji, endokrinoloji, qastroenteroloji, nevroloji, oftalmoloji, otorinolarinqoloji, pediatrik, psixiatrik və digər terapevtik tibbi xidmətlər göstərilir.

Hospitalın laboratoriyasında müasir, tam avtomatlaşdırılmış analizatorlar istifadə olunmaqla, biokimyəvi, PZR, koaqulopatoloji, hematoloji, bakterioloji, immunoseroloji və molekulyar-genetik müayinələr aparılır. Patomorfologiya şöbəsində isə histoloji, histokimyəvi, immunohistokimyəvi və immunofluoresens üsulları ilə dəqiq diaqnostik tədqiqatlar həyata keçirilir. Radiologiya şöbəsində 2 MRT cihazı, rəqəmsal rentgen, kompüter tomoqrafiyası, USM və digər qabaqcıl diaqnostik avadanlıqlar mövcuddur.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə müxtəlif mövzularda elmi konqreslər, konfranslar və

seminarlar, elmi-təcrübi təlimlər, elmi-tədqiqat mübadilə proqramları və ixtisasartırma kursları təşkil edilir. 2019-2025-ci illər ərzində Elmi-Təcrübi və Tədris Mərkəzi tərəfindən ümumilikdə 219 tədbir (75 təlim, 22 aksiya, 65 seminar, 30 konfrans, 4 forum, 1 simpozium, 7 dəyirmi masa, 2 zirvə görüşü, 13 tibbi sosial istiqamətdə tədbir) həyata keçirilmişdir.

Son üç il ərzində 3 metodik vəsait hazırlanmış və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi Tibbi Şurası tərəfindən tibbi praktikada istifadə üçün təsdiq olunmuşdur. Səhiyyə Nazirliyinə təqdim edilmiş "Qaraciyər transplantasiyasından sonra pasiyentlərin stasionarda təqibi" adlı daha bir metodik vəsaitin isə yaxın zamanlarda təsdiq edilməsi gözlənilir.

Hal-hazırda hospitalda 69 rezident müxtəlif ixtisaslar üzrə rezidentura təhsili alır. Rezidentura təhsili müddətində rezidentlər beynəlxalq standartlara uyğun olaraq xəstələrin diaqnostikası və müalicəsində və kompleks tibbi qərarların qəbulunda fəal iştirak edirlər. Bu şəraitdə formalaşan bilik və bacarıqlar rezidentlərin ölkə və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli kadr kimi yetişməsinə zəmin yaradır.

## Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu

Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna 2011-ci ildən Travmatologiya və Ortopediya ixtisası üzrə rezident qəbulu həyata keçirilir. Bu dövr ərzində 200-dən çox rezident travmatoloq və ortoped ixtisasına yiyələnib. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda hazırda 162 çarpayı sayı olmaqla 5 klinik şöbə (Travmatologiya şöbəsi, Ortopediya şöbəsi, Əl Cərrahiyəsi və Yaralar şöbəsi, Uşaq Travmatologiya və Ortopediya şöbəsi, Artroplastika və Artroskopiya şöbəsi) fəaliyyət göstərir.

Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda 1 professor, 6 tibb elmləri doktoru, 5 dosent, 17 tibb üzrə fəlsəfə doktoru elmi dərəcəli həkim-mütəxəssis fəaliyyət göstərir, rezidentlərə kurator kimi elmi dərəcəli həkim-mütəxəssislər təyin olunur. Təhsil müddətində rezidentlər ayrı-ayrı şöbələr üzrə peşə bacarıqlarını artırırlar, rezidenturada təhsil proqramı üzrə nəzərdə tutulmuş rotasiyalara göndərilirlər. Təhsil müddəti ərzində həkim-rezidentlər yüksəkixtisaslı həkim-mütəxəssislərin nəzarəti ilə aylıq gecə növbələri də daxil olmaqla xəstələrin müayinə və müalicəsində, həmçinin aparılan müxtəlif cərrahi əməliyyatlarda nəzarətli və daha sonra sərbəst iştirak edirlər. Hər il həkim-rezidentlər üçün elmi tibbi konfranslar, seminarlar təşkil olunur. Rezidentlər Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda nəşr edilən elmi praktik jurnal üçün məqalələrin hazırlanmasında iştirak edirlər.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu 122 çarpayı sayına malikdir. İnstitutda 5 nəfər (1 pediatriya, 4 mamalıq və ginekologiya) tibb elmləri doktoru elmi dərəcəsi, 1 nəfər (mamalıq və ginekologiya) professor elmi adı; 22 nəfər (3 pediatriya, 1 cərrahiyə, 1 andrologiya, 18 mamalıq və ginekologiya) tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 9 (3 pediatriya, 6 mamalıq və ginekologiya) dosent elmi adı olan mütəxəssis çalışır.

## Respublika Neyrocərrahiyyə Xəstəxanası

Respublika Neyrocərrahiyyə Xəstəxanasının klinik baza kimi fəaliyyəti haqqında:

- Əməliyat otaqları müasir avadanlıqlarla təchiz olunmuşdur;
- MRT cihazı ilə təhciz edilmişdir;
- Tibbi və tədris məqsədli konfrans zalı mövcuddur;
- Mövcud çarpayı sayı 160-dır;
- Əməkdaşların rezidentlərlə iş təcrübəsi mövcuddur;
- Hazırda klinik bazada elmi dərəcəsi olan iki əməkdaş fəaliyyət göstərir.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzi

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzi (bundan sonra – mərkəz) Hematologiya və Talassemiya bölmələrindən ibarətdir.

***Hematologiya bölməsinə daxildir:*** 10 çarpayıdan ibarət Reanimasiya və İntensiv Terapiya şöbəsi, 35 çarpayıdan ibarət Onkohematologiya şöbəsi, 23 çarpayıdan ibarət Pediatrik hematologiya şöbəsi, 28 çarpayıdan ibarət Hematologiya şöbəsi, Təcili tibbi yardım şöbəsi, Bioinformatika və statistika şöbəsi, Əczaçılıq xidmətləri şöbəsi, Şüa diaqnostika şöbəsi (rentgen, KT, USM), Klinik diaqnostik laboratoriya şöbəsi (*Hematologiya və hemostaz bölməsi, Biokimya bölməsi, Patohistologiya bölməsi, Tibbi genetika bölməsi, Talassemiyanın profilaktikası bölməsi, İmmunologiya bölməsi, Mikrobiologiya bölməsi*), Terapevtik Xidmətlər şöbəsi (Konsultativ xidmətlər bölməsi, Pediatrik xidmətlər bölməsi).

***Talassemiya bölməsinə daxildir:*** Klinik diaqnostik laboratoriya bölməsi, 30 çarpayıdan ibarət Pediatrik xidmətlər şöbəsi (Reanimasiya və intensiv terapiya bölməsi), Terapevtik xidmətlər şöbəsi, Şüa diaqnostika bölməsi (roentgen, USM), 5 çarpayıdan

ibarət Sümük iliyi transplantasiyası şöbəsi, Təşkili metodiki bölmə, Əczaçılıq bölməsi, Transfuziologiya şöbəsi.

**Milli Hematologiya və Transfuziologiya Mərkəzinin** kadr potensialı 639 nəfərdən ibarətdir. Mərkəzdə 32 elmi işçi çalışır (16 nəfər böyük elmi işçi, 15 nəfər kiçik elmi işçi, 4 nəfər tibb elmləri doktoru, 7 nəfər tibb üzrə fəlsəfə doktoru, 2 nəfər isə biologiya üzrə fəlsəfə doktoru).

Rezidentura təhsili alan həkimlərin hematologiya və həkim laborant ixtisasları üzrə dərin biliklərə yiyələnməsi, praktiki bacarıqlarının artırılması və bu sahədə mütəxəssis kimi yetişməsi üçün lazımi şərait yaradılmışdır.